**Kartofçuluq təsərrüfatlarında aparılan monitorinqlərə dair məlumat**

**(14 iyun 2023)**

Milli Monitorinq Planına uyğun olaraq, Agentlik əməkdaşları tərəfindən Cəlilabad rayonunun Muğan, Söyüdlü, Maşlıq, Cəfərxanlı, Bədirli, Əliqasımlı və Ocaqlı kəndlərində yerləşən 32 kartofçuluq təsərrüfatında monitorinqlər aparılıb. Monitorinqlər zamanı kartof yumrularından və torpaqdan ümumilikdə 56 nümunə götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun sınaq laboratoriyalarında müayinələrə cəlb olunub. Müayinələr nəticəsində karantin tətbiq edilməyən zərərli orqanizmlərdən Soya paxlası sista əmələgətirən nematodu, karantin tətbiq edilən zərərli orqanizmlərdən isə Kartof yumrularında halqavari bakterial çürümə və Qızılı kartof nematodu aşkarlanıb. Aşkarlanan zərərli orqanizmlərlə bağlı müvafiq tədbirlər həyata keçirilib.